Nazim TAPDIQOĞLU

# QARABAĞIN TACI ŞUŞAM









Az
V-49

Elmi redaktor: **Budaq Budaqov**
*AMEA-nın akademiki*

Elmi məsləhətçi: **Arif Quliyev**
*AMEA-nın müxbir üzvü*

Rəyçilər:
**Teymur Bünyadov**
*AMEA-nın akademiki*

**Tofiq Hacıyev**
*AMEA-nın müxbir üzvü,*

**Vidadi Əliyev**
*professor*

**Nadir Məmmədov**
*coğrafiya elmləri doktoru*




V-49 **Vəlişov Nazim Tapdıq oğlu.** Qarabağın tacı Şuşam. Bakı, 2003. 264 səh.

Kitabda Şuşa rayonunun yüzlərlə toponimləri, rayonun görkəmli şəxsiyyətləri, tanınmış musiqiçiləri, şəhid və itkinləri, bəzi şuşalıların ləqəbləri haqqında məlumat xarakterli bilgilər verilmişdir. Rayonun tarixi, etnoqrafiyası və coğrafiyası ilə bağlı bu qısa ensiklopedik məlumat kitabında rayondakı kəndlər, qəsəbələr, dağlar, qayalar, dərələr, zirvələr, bulaqlar, çaylar, meşələr, tarixi memarlıq abidələri, tayfalar, qəbiristanlıqlar və s. adların mənşəyi, mənası, dil mənsubiyyəti haqqında izahlı şərhlər də əks olunmuşdur.

Mövzu və forma baxımından müxtəlif olan fəsillərin hamısını birləşdirən ümumi bir xətt vardır ki, o da vətəndaşlıq yanğısı xəttidir.

Şuşa haqqında ilk universal nəşr hesab olunan bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

V 4702060201 / 094-2004

© Nazim Tapdıqoğlu, 2004





***Kiminə düşdü haqq yolu,***
***Kiminə də dustaq yolu.***
***Dünyanın ən uzaq yolu***
***Şuşadan Allaha qədər...***

***Oxumur Sarı bülbül,***
***Dinəydi barı bülbül.***
***Tənha qalıb Şuşada***
***Xar olan "Xarı bülbül"...***

## ÖN SÖZ

Əziz oxucu! Bu kitabda Şuşa rayonunun, onun kəndlərinin, maddi memarlıq-mədəniyyət abidələrinin sözlərlə dikilən tarixi ilə yanaşı, Şuşanın görkəmli adamları, ziyalıları, tanınmış şəxsiyyətləri, musiqiçiləri, şəhid və itkinləri haqqında bir çox məlumatlar öz əksini tapmışdır. Bilirəm ki, kitabda oxuyacağın sətirlərin əksəriyyətindən xəbərin var; ancaq onu da düşünürəm ki, bu cür təkrarın ziyanı da olmaz. Necə deyərlər, təkrar biliyin anasıdır. Mənə elə gəlir ki, məhz elə bu baxımdan bildiklərimizi təkrar etməyə, onu hər hansı mətbu dərgi şəklində bu və ya başqa formada gələcək nəsillərə çatdırmağa ehtiyac da var.



Əslində bildiklərimizin özündə bilmədiklərimiz də mövcuddur. Azərbaycanlıyıqsa, Azərbaycanı özümüzə vətən hesab ediriksə, burada yaşayırıqsa, deməli vətənin toponimlərini - ulu babalarımız tərəfindən onun hər qarışına,